# Qubadlı tikinti sektorunda tələbin qarşılanmasına töhfə verəcək

## Rayonun turizm sektorunun da kifayət qədər gəlir gətirmək potensialı var

**Müzəffər Azərbaycan Ordusu ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında Qarabağda şanlı tarix yazdı, torpaqlarımız erməni işğalçılarından təmizləndi. Hər gün cəbhədən qələbə xəbərləri gəldi, düşmən əlində olan kəndlərimiz, şəhərlərimiz işğaldan azad edildi. 27 il sonra biz tarixi torpaqlarımıza qovuşuruq. İndi Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməklə yanaşı, həm də iqtisadiyyatını bütövləşdirir...**

Azad olunan rayonlarımızdan biri də vətənin bir parçası olan, min bir sərvətli Qubadlıdır. O Qubadlı ki, mədən yataqları və turizm potensialı ilə unikal ahəngdarlığa malikdir.

Bəs Qubadlının hansı sosial-iqtisadi imkanları var? Qubadlı Azərbaycan iqtisadiyyatına hansı töhfələri verəcək?

Qubadlının iqtisadiyyatının əsasını taxılçılıq, heyvandarlıq, tütünçülük, baramaçılıq və üzümçülük təşkil edir. İşğaldan öncə rayonda 27-si mexanikiləşdirilmiş olan 31 süd-əmtəə ferması mövcud olub. Rayonda 2 üzümün ilkin emalı zavodu fəaliyyət göstərirdi. Süd-əmtəə fermalarının məhsulları yağ-pendir zavodunda emal olunurdu.

Tam gücü ilə işləyən asfalt zavodu təkcə Qubadlıya deyil, eyni zamanda qonşu rayonlara da xidmət edirdi. İnkubator-quşçuluq fabriki və balıqyetişdirmə vətəgəsi rayon əhalisini ət və balıq məhsullarıyla təmin edirdi. Daş karxanası və mərmər sexi əhalinin tələbatını əsaslı şəkildə ödəyirdi. Azərbaycan "Neftqazavtomat" təcrübə zavodunun rayonda yaradılmış filialında son tamamlama işləri gedirdi. Ümumiyyətlə, Qubadlı rayonunda 62 idarə və müəssisə fəaliyyət göstərirdi.

### "TİKİNTİ SEKTORUNUN TƏLƏBİNİ YERLİ EHTİYATLAR HESABINA TAM QARŞILAYA BİLƏRİK"

**İqtisadi İslahatların Təhlili və Kommunikasiyası Mərkəzi**ndən "Kaspi"yə verilən məlumata görə, Kəlbəcər-Laçın iqtisadi rayonuna daxil olan Qubadlı Ermənistanla sərhəd olmaqla dağlıq əraziyə malikdir. Qeyd edilən iqtisadi rayon digər iqtisadi rayonlarla müqayisədə mineral resurslar, faydalı qazıntılarla yanaşı, turizm potensialını da özündə cəmləşdirir: "Adətən, dağlıq relyefə malik mineral resursların istifadə olunduğu coğrafiyalarda turizm sektorunun potensialı daha az nəzərə çarpır. Buna baxmayaraq, Kəlbəcər-Laçın iqtisadi rayonu mədən yataqları və turizm potensialı ilə unikal ahəngdarlığa malikdir. Kəlbəcər və Zəngilan rayonu kimi, Qubadlı da bu zonada təbii yataqları ilə fərqlənir. Rayonda mişar daşı, gil, tikinti daşı, üzlük daşı, əlvan daşı və şirin yeraltı su ehtiyatları mövcuddur. Qeyd edilən ehtiyatların hər biri Kəlbəcər-Laçın iqtisadi rayonunu digər iqtisadi rayonlardan fərqləndirən əsas cəhətlərdəndir".

Mərkəzdən bildirilir ki, Qubadlı rayonunun ərazisində ehtiyatları 6247 min kubmetr mişar daşı üçün yararlı, istismara cəlb olunmuş Hacılı tufu, ehtiyatları 990 min kubmetr olan tikintiyə yararlı Xanlıq kəndində yerləşən gil, ehtiyatları 1,1 min ton olan Eyvazlı bəzək-əlvan (əqiq) daşı xüsusi vurğulanmalıdır: "Qeyd etmək lazımdır ki, rayon ərazisində yerləşən əqiq yatağı abidəsi nadir yataqlardan hesab olunur. Qubadlı rayonu təbii ehtiyatlar cəhətdən Cəbrayıl və Zəngilanla bir çox ortaq xüsusiyyətlərə malikdir. Hər üç rayonda yerləşən mişar daşı yatağı ölkəmizin tikinti sektorunda tələbin qarşılanmasında birbaşa rol oynayacaq. Belə ki, iqtisadi rayonun tərkibində hasil edilərək sonra istehsal potensialına malik bir sıra tikinti sektoruna yararlı resurslar ölkəmizə həm də idxal edilir. İqtisadiyyatımızın inkişafında "drayver" roluna malik tikinti sektoru inkişaf etdikcə, tikinti mallarının bir hissəsinin idxalını da artırır. Artıq Cəbrayıl, Zəngilan rayonlarından sonra, Qubadlı rayonunun da işğaldan azad edilməsi ilə tikinti sektorunun tam tələbini yerli ehtiyatlar hesabına qarşılaya bilərik".

### "ERMƏNİSTANIN ARZUSUNU AZƏRBAYCAN ORDUSU XÜLYAYA ÇEVİRDİ"

İslahatların mərkəzi şərh edir ki, rayon ərazisindən Bərgüşad, Həkəri çayları və onların qolları axır. Sözügedən çay suvarma və su elektrik stansiyası üçün əlverişlidir: "Belə ki, Ermənistanın işğalçılıq siyasətinin tərkib hissəsi olan iqtisadi cinayətkarlıq sözügedən çayların istismarı ilə də bağlıdır. 2009-cu ildə inşasına başlanılan üç su elektrik stansiyası 2011-ci ildə fəaliyyətə başlayıb. Qarşıdakı müddətdə daha üç elektrik stansiyasına başlamaq niyyətində olan Ermənistanın arzusunu Azərbaycan ordusu xülyaya çevirdi".

Mütəxəssislərin fikrincə, Qubadlı bölgəsinin su ehtiyatlarından istifadə ilə gücü təxminən 40 MGW olan su elektrik stansiyası tikmək mümkündür ki, bu, Kəlbəcər-Laçın iqtisadi rayonunun böyük hissəsini su ilə təmin edə bilər. Bundan əlavə, su ehtiyatları Dağlıq Qarabağın digər suya tələbatlı sahələrinin inkişafı üçün böyük bir stimul ola bilər".

### "TƏK TURİZM SEKTORUNDAN KİFAYƏT QƏDƏR GƏLİR GÖTÜRƏ BİLƏRİK"

**İqtisadçı ekspert Pərviz Heydərov** bizimlə söhbətində bildirdi ki, işğaldan azad olunan bütün ərazilərimiz həm təbii resurslar, həm də yeraltı, yerüstü sərvətlər baxımından zəngindir: "Həmin rayonların ilk növbədə təbiəti füsunkardır. Bu, Qubadlıya da aiddir. Neçə illərdir ki, Azərbaycanda qeyri-neft sektorunun inkişafına böyük işlər həyata keçirilir və bu sahədə ən böyük diqqət turizmin inkişafına verilir. Bu məqsədlə ölkədə çoxlu sayda müvafiq infrastruktur obyektləri yaradılmış, otellər tikilmiş, xidmət sahələri təşkil olunmuşdur. İndi biz işğal olunmuş rayonlara baxanda görürük ki, təhlükəsizlik tam şəkildə bərpa olunduqdan sonra turizmlə bağlı digər ərazilərimizdə görülən işlər bu rayonlarda da həyata keçirilərsə, müvafiq infrastruktur yaradılarsa, kifayət qədər gəlir götürə bilərik".

### "QUBADLI AZƏRBAYCANIN NADİR RAYONLARDAN BİRİDİR Kİ..."

Ekspert deyir ki, Qubadlı rayonu vaxtilə neft və sənaye obyektlərinin olduğu rayon kimi tanınıb: "Burada asfalt zavodu, quşçuluq inkubator fabriki, daş karxanası, neft-qaz avtomat təcrübə zavodu fəaliyyət göstərib. Yəni istehsal xarakterli bu rayonda çoxlu müəssisələr olub. Bu onu göstərir ki, Qubadlı həm də sənaye əhəmiyyətli bir təbii resurslara malikdir. Bu çox mühüm faktordur. Məsələn, kənd, rayonlardan söhbət düşəndə biz aqrar sahədən danışırıq. Qubadlı isə həm də sənaye əhəmiyyətli rayondur. Sovet dövründə asfalt zavodun fəaliyyətdə olması onu göstərir ki, bu rayonun sənaye potensialı yüksəkdir. Məsələn, daş karxanasının Qubadlıda olması, ona dəlalət edir ki, bu rayonda vaxtilə tikinti materiallarının istehsalı üçün də şərait olub. Bundan əlavə, Qubadlının su ehtiyatları da çoxdur. Qubadlı rayonu Azərbaycanın nadir rayonlardan biridir ki, burada çaylar bol su ilə xarakterizə olunur. Bilirsiniz ki, hazırda bütün dünyada olduğu kimi Azərbaycanda da içməli su problemi yarana bilər. Hətta bu yaxınlarda içməli su ehtiyatlarının artırılması ilə bağlı müşavirə keçirilmişdi. Qubadlıda bu sahədə heç bir problem yoxdur. Bu rayonda aqrar sahədə kənd təsərrüfatında həm heyvandarlığın, həm bitkiçiliyin inkişafı üçün çox böyük imkanlar mövcuddur. Rayonda təhlükəsizlik təmin olunduqdan sonra gələcəkdə əhalinin məskunlaşması, kənd təsərrüfatı işləri ilə məşğul olması, və o cümlədən rayonun sənaye potensialının inkişaf etdirilməsi üçün müasir istehsal müəssisələri yaradılmalıdır. Əgər bu təmin olunarsa, rayonun həm aqrar sahə, həm sənaye, həm də turizm üçün çox böyük potensial imkanları olacaq. Nəticə etibarı ilə, Kəlbəcər-Laçın iqtisadi rayonunda yerləşən Zəngilan və Qubadlının işğaldan azad olunmasından sonra iqtisadi rayonun 50 faiz hissəsi Azərbaycan dövlətinin nəzarətinə keçib. Digər rayonlardan bir sıra iqtisadi üstünlükləri ilə seçilən bu zona Azərbaycanın iqtisadi və inklüziv inkişafında da ciddi rol oynayacaq".



Məlumat üçün bildirək ki, Sovet dönəmində rayonda ildə 15 min tona qədər taxıl məhsulları, ildə 12 min tona yaxın yem, orta hesabla 2 min ton tütün, 1,2 min tonadək ət və 2 min ton süd məhsulları istehsal olunurdu. Dövlətə ildə orta hesabla 3 min ton üzüm satılırdı. İstehsal sahələrindən biri də baramaçılıq idi. İldə 60-70 ton barama istehsal edilib dövlətə təhvil verilirdi. 60-cı illərədək isə rayon çəltikçiliklə də məşğul olub.

**Aygün ƏZİZ**